# 2017-ci il Qəbələdə uğurla başa çatıb

## Məhsullarımız Avropa ölkələrinə ixrac olunur

***Fındıqçılıq Qəbələnin iqtisadiyyatında aparıcı yerlərdən birini tutmaqla yanaşı, həm də rayon əhalisinin əsas məşğuliyyət sahələrindən biridir. Kəndlilər yetişdirdikləri məhsulun bir hissəsini rayonda fəaliyyət göstərən Qəbələ Fındıq Emalı Zavoduna təhvil verirlər. Müəssisəyə Oğuz, Zaqatala və Qax rayonlarından da fındıq gətirilir.***




Bu emal müəssisəsinə qəbul olunan qabıqlı fındıq, ilk növbədə, təmizlənir, çəkilir, laboratoriyada məhsulun keyfiyyəti və nəmliyi yoxlanılır. Təmizlənmə sahəsində fındıq ləpəsinin içindən standarta uyğun olmayan, çürük, yarı bölünmüş ləpələr və digər qarışıqlar seçilib götürülür. Qablaşdırma sahəsində isə təmizlənən fındıq ləpəsi polietilen vakuum paketlərə qablaşdırılır. Təxminən 200 nəfərin işlədiyi müəssisədə saatda 700 kiloqram fındıq qovuran, duzlayan, qovurulan fındığı doğrayan, doğranmış fındıq üçün ələk sistemi avadanlıqları quraşdırılıb. Bütün bu məhsullar metal detektorlardan keçərək qablaşdırılır.

Hazır məhsullar əsasən Almaniya, İtaliya, İspaniya və digər Avropa ölkələrinə ixrac edilir. İxrac olunan məhsullar "ekoloji təmiz məhsul" kodu altında satılır.

2005-ci ildən fəaliyyət göstərən müəssisədə fındıq ləpəsindən püre, şokolad kremi, duzlu və şəkərli fındıq ləpəsi, üzərinə şokolad çəkilmiş fındıq ləpəsi və digər məhsulların hazırlanması da nəzərdə tutulur. Bu məhsullar da MDB və Avropa ölkələrinə ixrac ediləcək.

Rayonda fındıqçılığın inkişafına uyğun olaraq zavodun gücü daha da artırılacaq. Ötən il Qəbələdə 900 hektar sahədə yeni fındıq bağı salınıb. Həmçinin əlavə olaraq 600 hektar sahədə yeni fındıq bağlarının salınması üçün torpaqlar müəyyənləşdirilib və il ərzində 270 hektar sahədə fındıq tingi əkilib.

Qeyd edək ki, hazırda Qəbələ rayonunda 3827 hektar fındıq bağı var. Bunun 3480 hektarı bar verəndir. Bu il bağlardan 8 min 600 tondan artıq məhsul götürülüb. Yığılan fındığın satışı ilə bağlı problem olmayıb. Bağbanlar fındığın bir kiloqramını 3 manata satıblar.

**"Qəbələ"**

## Kənd təsərrüfatı məhsulları istehsalı artıb

***Azərbaycan Respublikası Prezidenti möhtərəm cənab İlham Əliyevin qeyri-neft sektorunun inkişaf etdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi yolunda həyata keçirdiyi tədbirlər, təsdiq etdiyi dövlət proqramları kənd əməkçilərinin üzərinə böyük vəzifələr qoymaqla yanaşı onların qarşısında geniş perspektivlər açır. Əkinçiliyə, bağçılığa dövlət dəstəyi ildən-ilə artır. Bunun nəticəsidir ki, ölkəmizin hər yerində olduğu kimi Qəbələ rayonunda da kənd təsərrüfatı məhsullarının istehsalı və çeşidləri durmadan çoxalır.***

Rayonda birinci növbədə region üçün ənənəvi olan kənd təsərrüfatı məhsulları istehsalı bərpa olunur və inkişaf etdirilir. Ötən əsrin 70-80-cı illərində Qəbələ qabaqcıl tütün, üzüm, barama istehsalçısı kimi tanınırdı. 1980-cı illərin sonu 90--cı illərin əvvəllərində baş verən hadisələr qeyd etdiyimiz bu yüksək gəlirli sahələrin tamamilə sıradan çıxmasına səbəb oldu.

Min hektarlarla üzüm və baramaçılığın yem bazası olan tut bağları məhv edildi. Xarici ölkələrlə iqtisadi əlaqələrin kəsilməsi nəticəsində tütünçülük də əhəmiyyətini itirdi.

Qeyd etdiyimiz kimi bu gün ölkə Prezidentinin diqqət və qaygısı sayəsində kənd təsərrüfatının üzümçülük, tütünçülük, baramaçılıq sahələrinin bərpası, fındıqçılığın isə daha da genişlənməsi üçün rayonumuzda ciddi addımlar atılır. Həyata keçirilmiş tədbirlər artıq öz müsbət nəticəsini verir.

2017-ci ildə rayonda 2065 ton üzüm, 100 tona yaxın tütün, 8600 tondan çox fındıq, 6500 tona yaxın tumlu meyvə istehsal olunmuşdur. Əvvəllər rayonumuzda ancaq fərdi təsərrüfatlar tərəfindən kartof istehsal olunurdusa artıq bu sahədə də iri təsərrüfatlar öz sözlərini deyirlər. «Cilan» MMC bu il 200 hektar sahədən 6200 tondan çox kartof əldə etmişdir ki, bu bazarda həmişə yüksək tələbata malik kartofun qiymətinin istehsakçılar üçün əlverişli qalmasına stimul yaratmışdır.

Kənd əməkçilərimiz rayonumuz üçün ənənəvi olmayan, ancaq yaxşı gəlir gətirən kənd təsərrüfatı məhsullarının istehsalına başlamış və müsbət nəticələr əldə etmişlər. 2017-ci ildə payonda ilk dəfə şəkər çuğunduru əkilmiş, emal müəssisələrinə dekabr ayının 20-dək 200 tona yaxın çuğundur satılmışdır.

2017-ci ildə rayonda 17 hektar sahədə qiymətli ərzaq məhsulu olan qarabaşaq yetişdirilmiş, 27 ton yüksək keyfiyyətli məhsul əldə edilmişdir.

Bir sözlə kənd əməkçilərimiz 2017-ci ili uğurla başa vurmuş, 2018-ci ilə daha böyük nailiyyətlər qazanmaq əzmilə qədəm qoymuşlar.

**Qüdrət SƏMƏDOV.**

## Xidmət təşkilatlarında

### Suvarma sistemləri idarəsi

2017-ci ilin yayı son illərlə müqayisədə görünməmiş dərəcədə quraqlıq və isti keçsə də suvarma sistemləri idarəsinin işçiləri vəzifələrinin öhdəsindən layiqincə gəlmişlər.

İdarə tərəfindən 7000 hektar payızlıq dənli bitkinin, 4451 hektar çoxillik əkmənin, 952 hektar həyətyanı sahənin, 577 hektar qarğıdalı əkininin, 512 hektar bostan-tərəvəzin, 1778 hektar biçənəyin, 459 hektar yoncanın, 125 hektar noxudun və 70 hektar tütün plantasiyasının vaxtlı-vaxtında suvarılması təmin edilmişdir.

İdarənin işçiləri suvarma kanallarının lildən təmizlənməsi, daşqın və selə qarşı bəndlərin vurulması, təmiri və sahilbəkitmə işlərini də müəyyən edilmiş səviyyədə icra etmişlər.

### Poçt filialı

Qəbələ Poçt Filialı da 2017-ci ili uğurla başa vurmuşdur. Əhali sektoruna xidmət üzrə proqnoz tapşırıqlar artıqlaması ilə yerinə yetirilmişdir.

Filialın bütün texniki avadanlığı müasir tələblərə uyğun yenilənmişdir.

2017-ci ildə qaçqın və məcburi köçkünlərin yaşadığı şəhərciyə və hərbi şəhərcik adlanan əraziyə poçt xidmətini yaxşılaşdırmaq üçün Zarağan-1 poçt şöbəsi istifadəyə verilmişdir

Poçt filialında Dünya Bankının krediti hesabına «Maliyyə xidmətlərinin inkişafı layihəsi» çərçivəsində struktur islahatları aparılmış, poçt filialının və poçt şöbələrinin avtomatlaşdırılması prosesi həyata keçirilmiş, bütün xidmət və əməliyyatların «Colvir» və avtoatlaşdırılmış korporotiv informasiya sistemində işlənilməsi təmin olunmuşdur.

Xidmətin yaxşı təşkilinin nəticəsidir ki, filialda poçt göndərişlərinin sayı əvvəlki illə müqayisədə xeyli artmışdır.

Poçt filialının rəisi Rauf Kərimov bildirir ki, «2017-ci ildə əsas məqsədimiz göstərilən xidmətlərin səmərəlilik və operativlik göstəricilərini yaxşılaşdırmaq və bununla müştəri məmnunluğuna nail olmaq olmuşdur. 2018-ci ilə xidmət sahələrimizin növünü və keyfiyyətini daha da yüksəltmək əsas hədəfimizdir».

### Telekommunikasiya qovşağı

Qəbələ TKQ 3582 nömrəlik 1 şəhər, 8320 nömrəlik 23 kənd elektron avtomat telefon stansiysına, 96 nömrəlik 3 mini telefon stansiyasına və 6 nömrəlik 2 kənd peyk rabitəsi sisteminə xidmət edir. Bu gun rayonun bütün kəndləri telefon rabitəsi ilə tam təmin olunub. 2017-ci ilin on bir ayı ərzində əhaliyə 529 ədəd yeni telefon xətti çəkilmişdir. Həmin müddət ərzində şəhər və kənd əhalisinə 2076 ədəd internet qoşulması verilmişdir. Beləliklə yüksəksürətli, genişzoloqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 5000 nəfərə çatdırılmışdır.

İl ərzində telefon rabitəsinin maddi texniki bazasının möhkəmlənməsi üçün xeyli iş görülmüş, 80-ə qədər rabitə direyi, xeyli məsafədə telefon kabelləri yenisi ilə əvəz olunmuşdur.

Hacıallı və Zarağan kənd EATS-lər yeni binaya köçürülmüşdür.

Qovşaq xidmət haqqının toplanmasını da artıqlamasılə yerinə yetirmişdir.

**«Qəbələ»**

## Bu il rayonumuza 242 min turist gəlib

***Son illər rayonda qurulan müasir turizm infrastrukturu ilin bütün fəsillərində turistlərə yüksək səviyyədə xidmət göstərmək üçün əlverişlidir. İsti yay günlərinin başa çatmasına baxmayaraq istirahət etmək üçün Qəbələyə üz tutan yerli və xarici turistlərin sayında azalma müşahidə olunmur.***

İlin ötən dövründə Qəbələyə 242 min turist gəlib. Bunun 102 mini yerli, 140 mini əcnəbi turistlərdir. Xaricilərin əksəriyyəti Rusiya, Türkiyə, Böyük Britaniya, İraq, Ukrayna, Latviya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, Səudiyyə Ərəbistanı, Qətər, İsrail, Pakistan və Misirdən olub. 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il tətili günlərində Qəbələyə daha 5 min turistin gələcəyi gözlənilir. Turistlərin istirahətinin mənalı təşkili üçün otellərdə, istirahət və əyləncə mərkəzlərində yüksək şərait yaradılıb.

Otel, istirahət və əyləncə mərkəzlərində dincəlməklə yanaşı, kanatla, atla gəzintiyə çıxmaq, güllə atıcılığı kompleksində nişan atmaq, ov etmək, balıq tutmaq turistlərin ən sevimli əyləncəsinə çevrilmişdir. Hazırda



müxtəlif turizm şirkətləri Bakıdan Qəbələyə endirimli qiymətlərlə tur-aksiyalar keçirirlər. Turistlər rahat nəqliyyat vasitələri ilə Qəbələyə gələrək sifariş etdikləri otellərdə yerləşirlər.

Qeyd edək ki, hazırda rayonda iri-xırdalı 100-ə yaxın turizm-istirahət obyekti fəaliyyət göstərir. Həmin obyektlərdən 20-si beş, dörd və üçulduzlu otellər və müasir istirahət mərkəzləridir. Bu turizm obyektlərində gün ərzində 4500 qonağı qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür.

**"Qəbələ"**

## Elmi-təcrübi seminar keçirilmişdir

***2016-cı ilin oktyabr ayının 24-də Respublika Arıçılar Assosiasiyasının Qəbələ Rayon Şöbəsi yaradılmışdır. Hazırda şöbənin 110 nəfər üzvü vardır. Assosiasiya tərəfindən müntəzəm olaraq arıçılara kömək məqsədi ilə rayona mütəxəssislər dəvət edilir, elmi-praktiki seminarlar təşkil olunur.***

Bu günlərdə Azərbaycan Respublikası Arıçılıq Assosiasiyasının rayon şöbəsinin təşkilatçılığı ilə Qəbələ arıçılarının növbəti toplantısı olmuşdur.

Tədbirdə rayonun müxtəlif kəndlərində fəaliyyət göstərən 55 nəfər arıçı iştirak etmişdir.

Tədbiri kənd təsərrüfatı idarəsinin heyvandarlıq sektorunun müdiri Şamil Osmanov açmışdır.

Qəbələ Rayon Arıçılar Assosiasiyasının sədri Anar Məmmədov 2017-ci ildə rayonda fəaliyyət göstərən arıçılıq təsərrüfatlarında görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat vermişdir. O, qeyd etmişdir ki, 2018-ci ildə də arıçılara Kənd Təsərrüfatı Nazirliyinin Elmi Tədqiqat İnstitutu tərəfindən dəstək davam etdiriləcək, o cümlədən ana arılar yetişdiriləərək onlara veriləcəkdir.

Assosiasiyanın təftiş komissiyasının sədri İlqar Cəlalov arıçılıq təsərrüfatlarında mövcud arı xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri barədə yığıncaq iştirakçılarına məlumat vermişdir.

Arıçılar mövcud problemlərin aradan qaldırılması yolları ilə bağlı fikir mübadiləsi aparmışlar.

Yekunda arıçılar assosiasiya sədrindən belə tədbirlərin tez-tez keçirilməsini xahiş etmişlər.

**«Qəbələ»**